*Linqvistika problemləri. Cild 1, №2, 2020, s.72-78*

# AZƏRBAYCANDA ONOMALOGİYANIN İNKİŞAFI

Dos. Pəri Paşayeva
ADPU, Azərbaycan dili və onun
tədrisi metodikası kafedrası
p.semsizade@mail.ru

**XÜLASƏ:**

Azərbaycanda dilçiliyin, həm Azərbaycanda, həm də türkologiyada isə onomalogiyanın inkişafı prof. Afad Qurbanovun adı ilə bağlıdır. Bu sahədə, eyni zamanda Azərbaycan ədəbi dilinin digər sahələrinin inkişafında A.Qurbanovun xüsusi xidmətləri olmuşdur.

1988-ci ildə A.Qurbanovun "Azərbaycan dilinin onomalogiyası" kitabının təhlilinə həsr etdiyi məqaləsində M.Şirəliyev yazmışdır ki, "Azərbaycan dilinin onomalogiyası" əsəri yalnız Azərbaycan dilçiliyi yox, həm dünya, həm də türkoloji dilçilik üçün olduqca dəyərlidir və Məsuliyyətlə deyə bilərəm ki, A.Qurbanov bu əsərlə Azərbaycan Onomastika məktəbinin əsasını qoymuşdur.

İyirminci əsrin ikinci yarısını Azərbaycanda dilçiliyin inkişafının yüksəliş dövrü adlandırmaq olar. Həmin dövr dilçiliyimizin bütün sahələrinin inkişafında, eyni zamanda onomalogiyanın müstəqil dilçilik şöbəsi kimi formalaşmasında A.Qurbanovun misilsiz xidmətləri olmuşdur. XX əsrin birinci yarısında bu sahə artıq dilçilərin diqqətini cəlb etmişdi. Tək-tək məqalələr işıq üzü görmüşdü. Lakin bunlar məqalə səviyyəsindən o tərəfə getməmiş və sistemli xarakterdə olmamışdır. Bu tədqiqat əsərlərində problemin kompleks həlli öz ifadəsini tapmamış, xüsusi adların tarixi cəhətdən tədqiqi diqqətdən kənarda qalmışdır. A.Qurbanov bu missiyanı öz üzərinə götürmüş, bir-birinin ardınca " Azərbaycan onomastikası" (1987), "Azərbaycan onomalogiyası məsələləri" (1986), "Poetik onomastika" (1988), "Azərbaycan dilinin onomalogiyası" (1988), " Onomalogiyaya dair metodik göstərişlər" (1987) və digər kitabları işıq üzü görmüşdür. Bu kitablar elm aləmində yüksək dəyərləndirilmiş, geniş oxucu kütləsi, dilçilər, araşdırmaçılar tərəfindən maraqla qarşılanmışdır.

Afad Qurbanov fəaliyyəti bununla məhdudlaşmamış, aspirant və dissertantlarına onomalogiyanın müxtəlif səpkili problemləri ilə əlaqədar mövzular vermişdir. ADPU-da özünəməxsus xüsusi bir məktəb formalaşdırmışdır. A.Qurbanovun bu sahədəki fəaliyyətini iki istiqamətdə ümumiləşdirmək olar:

1) Dildə mövcud olan onomastik vahidlərin tarixi-linqvistik cəhətdən araşdırılması;

2) Ayrı-ayrı yazıçıların bədii yaradıcılığında işlənmiş onomastik vahidlərin üslubi –linqvistik xüsusiyyətlərinin tədqiqi.

Hər iki istiqamət A.Qurbanovun diqqət mərkəzində olmuş, onlarla dəyərli tədqiqat əsəri meydana çıxmışdır.

**AÇAR SÖZLƏR:**A.Qurbanov, onomastika, fəaliyyət, kitab,məktəb.

## DEVELOPMENT OF ONOMALOGY IN AZERBAIJAN

**SUMMARY:**

Development of linguistics in Azerbaijan and onomology in both Azerbaijan and Turkology Prof. It is connected with Afad Gurbanov's name. A.Kurbanov had a special role in the development of other areas of the Azerbaijani literary language.

In the 1988 article by A. Gurbanov in his book "Onomalogy of the Azerbaijani Language", M. Shiraliyev wrote that the work "Onomalogy of the Azerbaijani language" is very valuable not only for Azerbaijani linguistics but for the world as well as for Turkic linguistics. A. Gurbanov laid the foundation of the Azerbaijan Onomastics School in this work.

The second half of the twentieth century can be called the rise of linguistic development in Azerbaijan. At that time A.Gurbanov had an invaluable role in the development of all areas of our linguistics, as well as in the formation of an independent linguistics department of onomology. In the first half of the twentieth century, this area has already attracted the attention of linguists. One-on-one articles were published. However, they did not go beyond the article level and were not systematic. The complex solution of the problem has not been found in these research papers, and the historical research of specific names has gone unnoticed. A. Gurbanov assumed this mission, one after another: "Onomastics of Azerbaijan" (1987), "Problems of Azerbaijani Onomology" (1986), "Poetic onomastics" (1988), "Onomalogy of the Azerbaijani language" (1988). methodological guidelines ”(1987) and other books. These books are highly regarded in the world of science, and have been widely accepted by readers, linguists and researchers.

The work of Afad Gurbanov is not limited to this, he has provided postgraduate and dissertation topics with various styles of onomology. A special school has been formed at ADPU. Kurbanov's work in this area can be summarized in two ways:

1) Historical-linguistic study of onomastic units in the language;

2) The style of onomastic units used in the literary creativity of individual writers - the study of linguistic features.

Both directions were in the focus of A. Gurbanov, and dozens of valuable research works appeared.

**Keywords:** A. Qurbanov, onomastics, activities, books, school.

## РАЗВИТИЕ ОНОМАЛОГИИ В АЗЕРБАЙДЖАНЕ


**РЕЗЮМЕ:**

Развитие лингвистики в Азербайджане и ономологии как в Азербайджане, так и в тюркологии проф. Это связано с именем Афада Гурбанова. А.Курбанов сыграл особую роль в развитии других направлений азербайджанского литературного языка.

В статье 1988 года А. Гурбанова в его книге «Ономалогия азербайджанского языка» М. Ширалиев писал, что работа «Ономалогия азербайджанского языка» очень ценна не только для азербайджанской лингвистики, но и для мира, а также для тюркской лингвистики. А. Гурбанов заложил основу Азербайджанской школы ономастики в этой работе.

Вторую половину двадцатого века можно назвать подъемом языкового развития в Азербайджане. В то время А.Гурбанов играл неоценимую роль в развитии всех направлений нашей лингвистики, а также в формировании самостоятельного лингвистического отдела ономологии. В первой половине двадцатого века эта область уже привлекла внимание лингвистов. Статьи один на один были опубликованы. Однако они не выходили за рамки уровня статьи и не были систематическими. Комплексное решение проблемы не было найдено в этих научных работах, и исторические исследования конкретных имен остались незамеченными. А. Гурбанов принимал эту миссию одну за другой: «Ономастика Азербайджана» (1987), «Проблемы азербайджанской ономологии» (1986), «Поэтическая ономастика» (1988), «Ономалогия азербайджанского языка» (1988). методические рекомендации »(1987) и др. Эти книги высоко ценятся в мире науки и были широко приняты читателями, лингвистами и исследователями.

Работа Афада Гурбанова не ограничивается этим, он обеспечил аспирантуру и диссертацию темами различных стилей ономологии. Специальная школа была сформирована в ADPU. Работу Курбанова в этой области можно обобщить двумя способами:

1) историко-лингвистическое изучение ономастических единиц в языке;

2) Стиль ономастических единиц, используемых в литературном творчестве отдельных писателей, - изучение языковых особенностей.

Оба направления были в центре внимания А. Гурбанова, и появились десятки ценных исследовательских работ.


**Ключевые слова:** А. Гурбанов, ономастика, деятельность, книги, школа...

**ANNOTASİYA**:

Bütün dünyada dilçiliyin inkişafına nəzər salsaq, görərik ki, bu elm sahəsi hər yerdə: bütün ölkələrdə, bütün elm mərkəzlərində eyni dərəcədə inkişaf etməmişdir. Bu cəhətdən Moskva, Qazan, paris, Cenevrə məktəblərinin fəaliyyəti xüsusilə qiymətləndirilir. Həmin mərkəzlər dünyada dilçiliyin inkişafına dəyərli əsərlər, fikirlər bəxş etmiş, bu sahənin elmi nəzəri əsaslarının fundamental inkişafına yardım edən əsərlər yaratmışlar. Azərbaycanda dilçiliyin, həm Azərbaycanda, həm də türkologiyada isə onomalogiyanın inkişafı prof. Afad Qurbanovun adı ilə bağlıdır. Bu sahədə, eyni zamanda Azərbaycan ədəbi dilinin digər sahələrinin inkişafında A.Qurbanovun xüsusi xidmətləriolmuşdur.

## GİRİŞ:

Bütün dünyada dilçiliyin inkişafına nəzər salsaq, görərik ki, bu elm sahəsi hər yerdə: bütün ölkələrdə, bütün elm mərkəzlərində eyni dərəcədə inkişaf etməmişdir. Bu cəhətdən Moskva, Qazan, paris, Cenevrə məktəblərinin fəaliyyəti xüsusilə qiymətləndirilir. Həmin mərkəzlər dünyada dilçiliyin inkişafına dəyərli əsərlər, fikirlər bəxş etmiş, bu sahənin elmi nəzəri əsaslarının fundamental inkişafına yardım edən əsərlər yaratmışlar. Azərbaycanda dilçiliyin, həm Azərbaycanda, həm də türkologiyada isə onomalogiyanın inkişafı prof. Afad Qurbanovun adı ilə bağlıdır. Bu sahədə, eyni zamanda Azərbaycan ədəbi dilinin digər sahələrinin inkişafında A.Qurbanovun xüsusi xidmətləri olmuşdur.

1988-ci ildə A.Qurbanovun "Azərbaycan dilinin onomalogiyası" kitabının təhlilinə həsr etdiyi məqaləsində M.Şirəliyev yazmışdır ki, "Azərbaycan dilinin onomalogiyası" əsəri yalnız Azərbaycan dilçiliyi yox, həm dünya, həm də türkoloji dilçilik üçün olduqca dəyərlidir və Məsuliyyətlə deyə bilərəm ki, A.Qurbanov bu əsərlə Azərbaycan Onomastika məktəbinin əsasını qoymuşdur.

İyirminci əsrin ikinci yarısını Azərbaycanda dilçiliyin inkişafının yüksəliş dövrü adlandırmaq olar. Həmin dövr dilçiliyimizin bütün sahələrinin inkişafında, eyni zamanda onomalogiyanın müstəqil dilçilik şöbəsi kimi formalaşmasında A.Qurbanovun misilsiz xidmətləri olmuşdur. XX əsrin birinci yarısında bu sahə artıq dilçilərin diqqətini cəlb etmişdi. Tək-tək məqalələr işıq üzü görmüşdü. Lakin bunlar məqalə səviyyəsindən o tərəfə getməmiş və sistemli xarakterdə olmamışdır. Bu tədqiqat əsərlərində problemin kompleks həlli öz ifadəsini tapmamış, xüsusi adların tarixi cəhətdən tədqiqi diqqətdən kənarda qalmışdır. A.Qurbanov bu missiyanı öz üzərinə götürmüş, bir-birinin ardınca " Azərbaycan onomastikası" (1987), "Azərbaycan onomalogiyası məsələləri" (1986), "Poetik onomastika" (1988), "Azərbaycan dilinin onomalogiyası" (1988), " Onomalogiyaya dair metodik göstərişlər" (1987) və digər kitabları

işıq üzü görmüşdür. Bu kitablar elm aləmində yüksək dəyərləndirilmiş, geniş oxucu kütləsi, dilçilər, araşdırmaçılar tərəfindən maraqla qarşılanmışdır.

Beləliklə, Azərbaycanda onomastikanın sistemli tədqiqi,bu sahədə geniş tədqiqatların aparılması məsələsi alimi düşündürmüş, Azərbaycan Onomastika Məktəbinin yaradılmasını məqsədəuyğun bilmiş və alimin çalışdığı ADPU-da (APİ) "Onomastik problem laboratoriyası" və "Azərbaycan Onomastika Mərkəzi" yaradılmış, müntəzəm olaraq ildə bir dəfə-payız aylarında Mərkəzin təşkilatçılığı ilə Beynəlxalq Elmi konfranslar keçirilmiş, toplanmış məqalələr "Azərbaycan Onomastikası Problemləri" adı ilə nəşr edilmişdir.

Afad Qurbanov fəaliyyəti bununla məhdudlaşmamış, aspirant və dissertantlarına onomalogiyanın müxtəlif səpkili problemləri ilə əlaqədar mövzular vermişdir. ADPU-da özünəməxsus xüsusi bir məktəb formalaşdırmışdır. A.Qurbanovun bu sahədəki fəaliyyətini iki istiqamətdə ümumiləşdirmək olar:

1) Dildə mövcud olan onomastik vahidlərin tarixi-linqvistik cəhətdən araşdırılması;

2) Ayrı-ayrı yazıçıların bədii yaradıcılığında işlənmiş onomastik vahidlərin üslubi –linqvistik xüsusiyyətlərinin tədqiqi.

Hər iki istiqamət A.Qurbanovun diqqət mərkəzində olmuş, onlarla dəyərli tədqiqat əsəri meydana çıxmışdır. Azərbaycanın onomastik sisteminin tədqiqi zamanı prof. A.Qurbanov özünəməxsus yol tutmuş, Şimali Azərbaycanla yanaşı, Cənubi Azərbaycanın, Qərbi Azərbaycan (Gürcüstan, Ermənistan), Dağıstan ərazilərində qalan Azərbaycan-türk mənşəli onomastik vahidlər, xüsusilə də toponimlərimiz tədqiqata cəlb edilmişdir.

A.Qurbanovun uzun müddət rəhbərlik etdiyi Azərbaycan dilçiliyi kafedrasının əməkdaşlarının çoxu onun yetirmələri olmuş, onların namizədlik, bəzən doktorluq dissertasiyaları məhz onomastik problemlərin araşdırılmasına həsr edilmişdir.

Lakin Professorun rəhbərlik etdiyi tədqiqatlar yalnız Şimali Azərbaycanda deyil, həm də ölkəmizin sərhədlərindən kənarda Türkiyədə, İranda, Rusiyada, Moldovada və Gürcüstanda aparılmışdır. Bütün bunlar Afad Qurbanovun beynəlxalq aləmdə tanındığını, dəyərləndirildiyini isbat edir.

Afad Qurbanovun Azərbaycanda Onomastika məktəbinin yaradıcısı kimi formalaşmasında bu sahəyə həsr etdiyi saysız elmi əsərlərin böyük rolu olmuşdur. Yuxarıda qeyd etdiyimiz kitablardan, dərsliklərdən başqa, alimin yüzə qədər elmi məqaləsi də onomalogiyanın müxtəlif problemlərinin həllinə həsr edilmi, dünyanın müxtəlif elmi jurnallarında çap edilmişdir. Onun bu sahədə ilk əsəri "Azərbaycanlı şəxs adlarının xüsusiyyətləri" (Tbilisi, 1956) məqaləsi olmuşdur. Ən samballı, fundamental əsəri isə 1988-ci ildə Bakıda nəşr olunmuş "Azərbaycan dilinin onomalogiyası" kitabıdır. Bu kitab dövlət tərəfindən yüksək qiymətləndirilmiş, Dövlət mükafatına layiq görülmüşdür.

Alim onomalogiya məsələləri ilə bağlı bütün yaradıcılığı boyu axtarışlar aparmış, kitablarını nəşr etdirərkən yeni fikirlərini, münasibətlərini də əlavə etmişdir. 2004-cü ildə Bakıda "Azərbaycan onomalogiyasının əsasları" adlı iki cildlik dərsliyin meydana gəlməsinin əsas səbəbi də xüsusi adlarımızın araşdırılmasına, etimologiyasına yeni baxışların formalaşması, müstəqillik illərinin verdiyi imkanlardan səmərəli istifadə edilməsi idi.

Türkologiyada ilk dəfə olaraq Afad Qurbanov tərəfindən xüsusi adların təsnifatı aparılmış, qrup və yarımqruplar müəyyənləşdirilmiş, onomalogiyanın elmi-nəzəri əsasları hazırlanmışdır. Ondan sonra yaranan bütün monoqrafiya-larda, dərslik və dərs vəsaitlərinin hazırlanmasında bu kitaba istinad edilmişdir.

Onomalogiyanın həm digər dilçilik şöbələri, həm də digər ictimai və qeyri-ictimai elmlərlə əlaqəsindən bəhs edən alim, bu şöbənin tarix, sosiologiya, estetika, epiqrafika, coğrafiya, astronomiya və s. elmlərlə əlaqəsini nəzəri cəhətdən əsaslandırmış, tədqiqatların bu elmlərin sinteziinə əsaslanaraq aparılmasını vacib hesab edirdi. O, ilk növbədə, bunu öz tədqiqatlarına tətbiq etmiş, Albançay, Biçənək, Qanlıgöl, İncəçay və s. toponimlərin etimologiya-sının izahı zamanı həmin elmlərin nəticələrinə əsaslanmışdır. Buna görə də onun etimoloji araşdırmaları, antroponimlərin yaranması və inkişafı dövrlərinin dəqiqləşdirilməsi,onomastik vahidlərin leksik-semantik qruplarının müəyyən edilməsi sahəsində mülahizələri orijinal və əsaslıdır.

Afad Qurbanov birtərəfli tədqiqatlar aparmamış dilimizin leksik sistemini terminlərlə də zənginləşdirmişdir. Onomastika ilə əlaqədar alimin yaratdığı bəzi terminlərin izahəna nəzər yetirək:

1.onomastika-xüsusi adların cəmi
2.onomalogiya-xüsusi adlardan bəhs edən dilçilik şöbəsi
3.antroponimika-şəxs adları, soyadlar, ləqəb, təxəllüs, nisbə və s.
4.antroponimiya-şəxs adlarından bəhs edən elm-şöbə
5.toponimika-toponimlərin cəmi
6.toponimiya-toponimlərdən bəhs edən elm-şöbə və s.

Terminlərin işlənmə məqamına, semantikasına xüsusi diqqət yetirən A.Qurbanovun yaratdığı terminlər artıq dilçiliyimizdə sabitləşmişdir.

**AKTUALLIQ:**

Afad Qurbanovun Azərbaycanda Onomastika məktəbinin yaradıcısı kimi formalaşmasında bu sahəyə həsr etdiyi saysız elmi əsərlərin böyük rolu olmuşdur. Yuxarıda qeyd etdiyimiz kitablardan, dərsliklərdən başqa, alimin yüzə qədər elmi məqaləsi də onomalogiyanın müxtəlif problemlərinin həllinə həsr edilmi, dünyanın müxtəlif elmi jurnallarında çap edilmişdir. Onun bu sahədə ilk əsəri "Azərbaycanlı şəxs adlarının xüsusiyyətləri" (Tbilisi, 1956) məqaləsi olmuşdur. Ən samballı, fundamental əsəri isə 1988-ci ildə Bakıda nəşr

olunmuş "Azərbaycan dilinin onomalogiyası" kitabıdır. Bu kitab dövlət tərəfindən yüksək qiymətləndirilmiş, Dövlət mükafatına layiq görülmüşdür.

**TƏDQİQAT İŞİNİN METODLARI:**

Məqalədə, əsasən, areal, müqayisəli-qarşılaşdırmalı metoddan, statistik və üslubi metodlardan istifadə edilmişdir.

**NƏTİCƏ:**

Qürur hissi ilə demək olar ki, A.Qurbanov Azərbaycan dilçiliyində onomastik vahidlərin mənşəyi, areallığı, poetik onomastika, onomastik terminlər lüğətlərinin yaradılması, onların orfoqrafiya və orfoepiyası, onomastik vahidlərin tərkibi, tək və çoxkomponentlik, onların strukturu və s. onlarla problemin həllinə çalışmış və buna nail olmuşdur.

Onomalogiyanın inkişafı istiqamətində Afad Qurbanovun şəxsi nümunəsi bu gün də gənclər üçün örnəkdir. Əbədi xəzinə kimi yazıb xalqa bəxş etdiyi əsərləri bu gün də dəyərlidir və dilçiliyimizin inkişafına xidmət edir. Ona görə də belə demək mümkündür: Afad Qurbanov yaşayır!

**ƏDƏBİYYAT**

1.A.Qurbanov. Azərbaycan onomastikası. BAKI – 1987
2.A.Qurbanov. Azərbaycan onomalogiyasının əsasları. 2 c. Bakı, 2004
3. A.Qurbanov. Azərbaycanlı şəxs adlarının xüsusiyyətləri. Tbilisi, 1956
1. A. Axundov Torpağın köksündə tarixin izləri. Bakı, Gənclik, 1983
2.Adilov M., Paşayev A. Azərbaycan onomastikası. Bakı, ADU nəşriyyatı, 1987
3.Cəfərov C. Milli etnik yaddaşın izi ilə. Bakı, Səda, 2005
4.Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı, Bakı Universitetinin nəşriyyatı, 1991